**Orucoğlu Z.** Cəsur leytenant // 525-ci qəzet. - 2024. - 10 oktyabr. - **№ 185**. - S. 14.

**Bayram İlqar oğlu Babaşov 1993-cü ildə Cəlilabad rayonu, Günəşli kəndində dünyaya göz açmışdı. Vətən torpaqlarının düşmən əsarətində olması Bayramı hələ yeniyetmə yaşlarından rahat buraxmırdı. Odur ki, qəlbindəki Vətən sevgisi onu özünü hərb sənətinə bağlamağa vadar etdi və 2012-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Həbi Məktəbinə daxil oldu.**

Təhsil illərində Vətən, torpaq sevgisi Bayrama hərbin sirlərinə daha mükəmməl yiyələnməsi üçün mənəvi stimul verdi. Məktəbi yüksək səviyyədə bitirib, elə həmin ildən də 3-cü ordu korpusunun xüsusi təyinatlı snayper bölümündə tağım komandiri kimi xidmətə başladı. Bayram Babaşov biliyi, peşəkarlığı və hərbçilərə xas xarakteri ilk gündən diqqət çəkirdi.

Komandirlərin tapşırıqlarını dəqiq, qüsursuz və vaxtında yerinə yetirdi, qatıldığı xüsusi əməliyyatlarda fərqləndi. Qardaş Türkiyədə hərbi təlimlərdə iştirak edərək ağır sınaqlardan üzüağ çıxdı. Bütün bunlarla bərabər, Xüsusi hava desantı paraşüt kurslarını bitirən Bayram 2019-cu ildə baş leytenant rütbəsini aldı və 3-cü ordu korpusunun əlahiddə əməliyyat taborunun birinci əməliyyat bölüyünün komandiri vəzifəsinə təyin olundu. Peşəkar komandir, cəsur döyüşçü kimi tabeliyində olan şəxsi heyətə daim diqqət və qayğı ilə yanaşdı, onların döyüş bacarıqlarına xüsusi önəm verdi.

44 günlük haqq savaşımız başlananda baş leytenant Bayram Babaşov "Qələbə bizimlədir, çünki öz ata-baba torpağımız uğrunda vuruşuruq" - deyib odun-alovun içinə atıldı. Azərbaycan Ordusunun müdafiə zolağının ən çətin istiqamətindən - Murovdağ yüksəkliyindən döyüşə başladı. Düşmənin neçə-neçə texnikasını, canlı qüvvəsini məhv etməklə Ömər aşırımı istiqamətində yerləşən düşmən mövqelərinin ələ keçirilməsində böyük şücaət göstərdi.

Vətən sevdalı zabitimiz oktyabrın 2-də Kəlbəcər uğrunda düşmənlə qeyri-bərabər döyüşə girərək şəhadətə ucaldı. Döyüş yoldaşları ilə birlikdə ələ keçirilmiş mövqelərdən sona qədər geri çəkilmədi. Baş leytenant şəhid olan əsgərlərinin, yaralıların yağı əlinə keçməməsi üçün üç saat təkbaşına döyüşdü, 30-dan çox düşməni məhv etdi.

Şəhid baş leytenant Bayram Babaşovun iki qardaşı da İkinci Qarabağ müharibəsi başlayan gündən ön cəbhəyə yollanıb, hər ikisi qazi olub.

Cəlilabad camaatı ölümsüzlüyə qovuşan igid oğlunu həmişə ehtiramla xatırlayır. Doğma kəndində onun adına inşa olunan bulaq hər kəs üçün müqəddəs yer sayılır.

Şəhid zabitimiz Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin!